**Azərbaycan Respublikası**
**Standartlaşdırma, Metrologiya və Patent üzrə**
**Dövlət Komitəsi**
**Apellyasiya şurasının**
**Qərarı**

**Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə**
**Dövlət Komitəsinin**
**Apellyasiya şurası**

M.B.Babayevin sədrliyi ilə,
üzvlər–N.F.Nəsibova, N.A.Hacıyeva, F.İ.Məmmədov,
Ə.M.Qarayeva, R.N.Hüseynov, E.Ş.Qafarov

etiraz ərizəsini verən iddiaçı- “KONTI-RUS” */ünvanı –Kursk şəhəri, 305000, Zolotaya 13 küçəsi, Russiya Federasiyası (RU)/* Səhmdar Cəmiyyətinin və “İstehsalat Birliyi KONTİ” /*ünvanı – Ukrayna, Donetsk rayonu, Konstiantynovka şəhəri, İnternasionalna küç. 460 (UA)/* Xüsusi Səhmdar Cəmiyyətinin nümayəndəsi Qəşəmov Fuad Azad oğlunun

qarşı tərəfin, “KOROĞLU” MMC-nin */AZ1040, Bakı şəhəri, Bakıxanov qəs., Bəşir Bünyadov küçəsi 17-A (AZ)/* nümayəndəsi Ağaşirinov Ağalar Əzizağa oğlunun və Babaşov Emin Söhbət oğlunun iştirakları ilə,

M.B.Babayevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

12.02.2018 il tarixdə “Koroğlu” MMC-yə məxsus “  ” adlı əmtəə nişanının 30-cusinifin*(qənnadı məmulatları, xüsusən də konfetlər)*əmtəələrivə35-ci sinifin *(30-cu sinifdə göstərilən əmtəələrin satışı üzrə xidmətlər)*xidmətləri üzrə2016 1433 nömrəli qeydiyyatına qarşı “KONTİ-RUS” Səhmdar Cəmiyyətinin və “İstehsalat Birliyi KONTİ” Xüsusi Səhmdar Cəmiyyətinin nümayəndəsi A.M.Kərimovtərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

İddiaçı etiraz ərizəsində göstərilir ki,Ukrayna Respublikasının qanunvericiliyi əsasında fəaliyyət göstərən və Ukrayna Respublikasının Donetsk rayonu, Konstantinovka şəhəri, İnternatsionalna küçəsi 460 ünvanında yerləşən İstehsalat Birliyi “Konti” Xüsusi Səhmdar Cəmiyyətinin (bundan sonra “Konti İB”) işçisi Sinitsa Tatyana Viktorovna tərəfindən 20 oktyabr 2014-cü il tarixində “Мамулин Торт” adlı kombinasiya edilmiş əmtəə nişanlarının təsvir hissələri  ,  yaradılmışdır. Eyni zamanda “KOROĞLU” Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra “Koroğlu” MMC) tərəfindən 30 sinifin əmtəələri üzrə 11 avqust 2016-cı il tarixində 2016 00589 nömrəli qeydiyyata alınmasına dair iddia ərizəsi verilmişdir və 02 dekabr 2016-cı il tarixində “Вкус Детства” adlı kombinasiya edilmiş əmtəə nişanı  2016 1433 nömrəsi ilə qeydiyyata alınmışdır.

Apellyasiya Şurasının nəzərinə çatdırırıq ki, bu etiraz ərizəsi ilə bağlı iddiaçı qismində Konti İB və Konti SC çıxış edir.

Iddaçılar (Konti İB və Konti SC), hesab edirlər ki, Koroğlu MMC “Вкус Детства” adlı əmtəə nişanını qeydiyyata alaraq, Konti İB-nə məxsus olan müəlliflik hüquqlarını kobud şəkildə pozmuşdur. Belə ki, bu etiraz ərizəsinə əlavə olunan və müəlliflik hüququnu təsdiq edən sənədlərdən görünür ki, “Мамулин Торт” adlı kombinasiya edilmiş əmtəə nişanlarının təsvir hissələri  ,  20 oktyabr 2014-cü il tarixində Ukrayna Respublikasının Kiyev şəhərində Sinitsa Tatyana Viktorovna tərəfindən onun işəgötürəni Ukrayna Respublikasının Konti İB-nin tapşırığı ilə yaradılmışdır və tərəflər arasında əmək müqaviləsinin tələblərinə və Ukrayna Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəlliflik hüquqları Ukrayna Respublikasının Konti İB-nə keçmişdir. Bununla bağlı qeyd etmək istərdik ki, “Ədəbi və Bədii Əsərlərin Qorunması haqqında Bern Konvensiyası”nın 2-ci maddəsinin 1-ci bəndində “Ədəbi və Bədii Əsərlər” terminin açıqlanması verilmişdir. Həmin açıqlanmaya əsasən, əmtəə nişanlarının təsvir hissələri (qrafika, şəkillər) də qeyd edilmişdir. Sözügedən Konvensiyanın 2-ci maddəsinin 6-cı bəndində qeyd edilmişdir ki, bu maddədə göstərilən əsərlər İttifaqın bütün ölkələrində qorunur. Bu qorunma müəllifin və onun varislərinin mənafeyi naminə həyata keçirilir. Qeyd etmək istərdik ki, həm Azərbaycan Respublikası, həm Rusiya Federasiyası, həm də Ukrayna Respublikası bu İttifaqın üzv ölkələridir. Beləliklə, İttifaqın üzv ölkəsində yaradılmış təsvir hissəsi həmçinin Azərbaycan Respublikasında qorunur. Eyni zamanda, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanunun 5-ci maddəsinin 1-ci bəndinə əsasən, müəllif hüququ təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm açıqlanmış, həm də açıqlanmamış, obyektiv formada mövcud olan elm, ədəbiyyat və incəsənət

əsərlərinə şamil edilir. Həmin qanunun 6-cı maddəsinə əsasən, qrafika, dizayn, qrafik hekayələr və s. müəllif hüququnun obyekti olan əsərlər sayılır. Göründüyü kimi, Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanuna əsasən, "Мамулин Торт" adlı təsvir müəlliflik obyekti sayılır.

Əmtəə nişanların təsviri hissələrindən görünür kimi, müqayisə edilən əmtəə nişanları təsviri hissədən, rənglərin quraşmasından və sözlərdən ibarət yaradılmış əmtəə nişanlarıdır. Bununla da qeyd etmək istərdik ki, "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.8.2-ci bəndində qeyd edilmişdir ki, Kombinasiyalı nişanların (işarələrin) oxşarlığının təyini zamanı bu Qaydaların 29.6.1—29.6.5 və 29.7.1—29.7.3 bəndlərində göstərilən əlamətlərdən istifadə olunur, həmçinin həmin əlamətlərin mənasının eyni və ya oxşar elementlərlə iddia olunan nişanda (işarədə) olması tətbiq olunur.

Əmtəə nişanların oxşarlığını müəyyən edərkən, "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.6.1-ci "Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir", 29.6.2-ci "Səs üzrə (fonetik) oxşarlıq", 29.6.3-cü "Qrafiki (görünüşlü) oxşarlıq", 29.6.4-cü "Məna etibarı ilə", 29.6.5-ci "Bu Qaydaların 29.6.1-29.6.4 bəndlərində göstərilənlərin hər biri istər ayrıca və istərsə də müxtəlif quraşmalarda (birləşmələrdə) nəzərə alına bilər", 29.7.1-ci "Təsviri və üçölçülü formalı nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə olunur", 29.7.2-ci "Təsviri və həcmi nişanların (işarələrin) oxşarlığı müəyyən edilir", 29.8.1-ci "Kombinasiyalı nişanın (işarənin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilirlər", 29.8.2-ci "Kombinasiyalı nişanların (işarələrin) oxşarlığının təyini zamanı bu Qaydaların 29.6.1—29.6.5-ci və 29.7.1—29.7.3-cü bəndlərində göstərilən əlamətlərdən istifadə olunur, həmçinin həmin əlamətlərin mənasının eyni və ya oxşar elementlərlə iddia olunan nişanda (işarədə) olması tətbiq olunur", 29.9.1-ci "Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır" və 29.9.2-ci "Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır", bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır.

Müqayisə edilən əmtəə nişanlarının ümumi kompozisiyası eynilik təşkil edir. Belə ki, hər iki nişanın qrafik hissələrinin mərkəzində tortun iki hissəsi göstərilib, bu hissələrin yerləşdirilməsi, forması və görünüşü tam olaraq eynidir. Tortların üstü şokoladla örtülüb, və onların yanında həmçinin tam olaraq eyni olan qəhvə fincanları göstərilir. Eyni zamanda hər iki nişanda tam eyni olan ürək formasında iki ədəd vafli müşahidə olunur. Nişanın mərkəzində həmçinin ana və qızın şəkilləri göstərilib. Xüsusi ilə də, qeyd etmək istərdik ki, hər iki müqayisə edilən əmtəə nişanlarda eyni şəxslərin (ana və qızın) şəkilləri göstərilir. Baxmayaraq ki, müqayisə edilən nişanların adları fərqlidir, həm Konti şirkətinə məxsus olan nişanında "Мамулин Торт", həm də Koroğlu MMC-yə məxsus nişanında "Вкус Детства" söz birləşmələri eyni formada olan düzbucaqda eyni şriftlə yazılıb və eyni yerdə yerləşdirilib. Eyni zamanda qeyd etmək lazımdır ki, müqayisə edilən nişanlarda istifadə olunan həm "Konti" loqotipi həm də "Konfirella" loqotipi eyni şriftlə yazılıb, eyni yerdə yerləşdirilib və eyni rənglə yazılıblar, hətta hər iki loqotipin üstündə eyni olan şabalıd ağacının yarpaqları stilizə olunmuş formada yerləşdirilib (beş yarpaq). Həmçinin "с кофейно-трюфельным вкусом" söz birləşmələri hər iki nişanda tam olaraq eynidir. Əmtəə nişanlarında istifadə edilən bütün sözlərin şrifti, yerləşdirilməsi üst-üstə düşür. Beləliklə, əmtəə nişanlarının təsvirində istifadə edilən sözlərin ümumi görünüşlü (müşahidə) təəssüratı, şriftin növü, hərflərin xarakteri nəzərə alınmaqla qrafiki yazılış (məsələn, çap və ya əllə yazılmış hərflər), hərflərlə yazılmış sözlərin əlifbası üst–üstə düşür. Belə ki, hər iki əmtəə nişanında sözlər kiril əlifbası ilə rus dilində və eyni şriftlə yazılıblar. Əmtəə nişanlarının xarici forması, eyni simmetriyanın mövcud olması, və xüsusiyyətləri (naturallığı) oxşarlıq yaradır.

"Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.3-cü maddəsinə əsasən, iddia olunan nişan başqa nişanlarla o vaxt

qarışdırılacaq dərəcədə uyğun hesab edilir ki, o, aralarında müəyyən fərqli elementlərin olmasına baxmayaraq, həmin nişanlarla eyni təsəvvür yaradır. Müqayisəsi aparılan nişanlarındakı cüzi fərqlər də məhz həmin qəbildən olan fərqlərə aid olmaqla, nişanların qarışdırılacaq dərəcədə uyğunluğuna səbəb olur.

"Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"na və yuxarıda göstərilmiş əmtəə nişanlarının müqayisə hissəsinə əsasən, iddiaçılar (Konti İB və Konti SC) hesab edirlər ki, "Мамулин Торт" adlı kombinasiya edilmiş əmtəə nişanı və "Вкус Детства" adlı kombinasiya edilmiş əmtəə nişanı (2016 1433 nömrəsi ilə qeydiyyat) qarışdırılacaq dərəcədə bənzər olan nişanlardır.

Apelyasiya Şurasının nəzərinə çatdırırıq ki, Koroğlu MMC-nin Konti şirkəti ilə bilavasitə əlaqəsi var idi. Belə ki, Konti şirkəti və Koroğlu MMC arasında 25 oktyabr 2010-cu il tarixində imzalanmış 1241/8/10 nömrəli və 31 dekabr 2011-ci il tarixinədək qüvvədə olan, 27 dekabr 2012-ci il tarixində imzalanmış 1266/8/12 nömrəli və 31 dekabr 2013-cü il tarixinədək qüvvədə olan və 02 mart 2016-cı il tarixində imzalanmış 0108/8/16 nömrəli və 31 dekabr 2016-cı il tarixinədək qüvvədə olan qənnadı məmulatların təchizatı üzrə müqavilələr bağlanmışdır. Həmin müqavilələrə əsasən, Koroğlu MMC Konti şirkətinin qənnadı məmulatlarının Azərbaycanda satışını təşkil edirdi. Göründüyü kimi, Konti və Koroğlu arasında olan axırıncı müqavilənin müddəti 31 dekabr 2016-cı il tarixində bitmişdir. Konti şirkəti və Koroğlu MMC arasındakı münasibətlərdən irəli gələn və bu etiraz ərizəsinə əlavə olunan sənədlərdən (bəyannamələr, hesab-fakturalar, qaimələr, spesifikasiyalar) görünür ki, Konti şirkəti Koroğlu MMC-ni qənnadı məmulatlarının Azərbaycanda satışı məqsədi ilə təchiz edirdi və bu məmulatların arasında həmçinin "Мамулин Торт" adlı məmulat mövcüd idi. Bu etiraz ərizəsinə əlavə olunan və bu paraqrafda qeyd edilən müqavilələrdən görünür ki, Koroğlu MMC-nin həm Konti SC ilə həm də Konti İB ilə əlaqəsi var idi.

Koroğlu MMC-nin və Konti şirkəti ilə arasında olan münasibətlər ilə bağlı qeyd etmək istərdik ki, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 29 maddəsinə əsasən, əmtəə nişanının qeydiyyatı aşağıdakı halda etibarsız hesab edilir: əmtəə nişanı qüvvədə olduğu müddətdə tam və ya qismən, "Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası"nın iştirakçısı olan dövlətlərin hər hansı birində, əmtəə nişanının sahibi ilə bilavasitə və ya dolayı yolla əlaqəsi olan şəxsin, nümayəndənin, agentin adına, Konvensiyanın 6 septies maddəsinin tələbləri pozulmaqla verildikdə. Bu şərtlərə görə Koroğlu MMC-nin Konti SC ilə bilavasitə əlaqəsi var idi. Göründüyü kimi, Konti şirkəti və Koroğlu MMC arasında olan axırıncı müqavilənin qüvvədə olduğu müddət ərzində, daha dəqiq desək 11 avqust 2016-cı il tarixində Koroğlu MMC "Вкус Детства" adlı kombinasiya edilmiş əmtəə nişanının qeydiyyata alınmasına dair iddia ərizəsini vermişdir. Başqa cür desək, Koroğlu MMC Konti şirkətinin distribyutoru olduğu zaman Konti şirkətinə məxsus olan nişanı qeydiyyata alınmasına dair iddia ərizəsi vermişdir və bununla da "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 29 maddəsinin müddəalarını kobud şəkildə pozmuşdur.

Yuxarıdakı paraqraflarda artıq qeyd olunduğu kimi, bu etiraz ərizəsinə bəyannamələr, hesab-fakturalar, qaimələr, spesifikasiyalar əlavə olunur. Bu sənədlərdən görünür ki, Konti şirkətinə məxsus "Мамулин Торт" adlı məmulat Azərbaycan Respublikasına Koroglu MMC-yə məxsus "Вкус Детства" adlı əmtəə nişanın qeydiyyata alınmasından əvvəl idxal olunurdu. Nəzərə alsaq ki, Koroğlu MMC Konti şirkətinin distribyutoru olub və Konti şirkətinin mallarını Azərbaycan Respublikasında təchiz edib və Konti şirkətinin məhsulları ilə yaxından tanış idi - nəticəyə gəlmək olar ki, Koroğlu MMC "Вкус Детства" adlı əmtəə nişanının qeydiyyata alınmasına dair iddia ərizəsini istehsalçılar və istehlakçılar arasında yanlış təəssüratın yaradılması məqsədi ilə vermişdir. Bununla bağlı, qeyd etmək istərdik ki, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunun 5-ci maddəsinin (f) bəndinə əsasən, istehlakçıları əmtəənin coğrafi mənşəyi ilə əlaqədar yanıldа bilən nişanların qeydə alınmasına yol verilmir. Eyni zamanda "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunun 6-cı maddəsinin birinci hissəsinin (ç)

bəndinə əsasən, əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr və ya xidmətlər üzrə başqa şəxs tərəfindən istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan (tanınmış olan) əmtəə nişanların qeydə alınmasına yol verilmir. Koroğlu MMC-yə məxsus “Вкус Детства” əmtəə nişanı altında Azərbaycan Respublikasında istehsal olunan əmtəələr bazara buraxılsa belə, əmtəə nişanın adının kiril qrafikalı əlifbada, rus dilində verilməsi istehlakçıda qeyd olunan əmtəələrin Rusiya Federasiyasında istehsal olunduğu təsəvvürü yaradır.

O cümlədən, qeyd olunmalıdır ki, “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsinə əsasən, rəqibin əmtəəsinin, həmçinin onun əmtəə formasının, qablaşdırılmasının və xarici tərtibatının özbaşına təqlid edilməsinə yol verilmir və göstərilən hərəkətlər haqsız rəqabət hesab olunur. Eyni zamanda, “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası”nın 10 bis maddəsinə əsasən, sənaye və ticari əlaqələrdə qəbul edilmiş adətlərə zidd olan rəqabət aktı haqsız rəqabət aktı hesab olunur.Xüsusilə, rəqibin müəssisəsi, məhsulları, yaxud sənaye və ya ticari fəaliyyətiylə bağlı hər hansı bir üsulla qarışıqlıq yarada bilən fəaliyyətlər qadağan olunur. Göründüyü kimi, Koroğlu MMC Konti şirkətinə məxsus olan və əvvəlcədən qeydiyata alınmasına dair iddia edilmiş “Мамулин Торт” adlı əmtəə nişanı ilə qarışdırılacaq dərəcədə bənzər olan “Вкус Детства” adlı əmtəə nişanın qeydiyyata alınmasına dair iddia ərizə vermiş və sonradan Azərbaycan Respublikasında satışını təşkil etmişdir. Koroğlu MMC “Вкус Детства” adı altında məhsulları Azərbaycan Respublikasında sataraq istehlakçılar arasında yanlış təəssürat yaratmışdır və bununla da Konti şirkətinin nüfuzuna zərər vurmuşdur.

Yuxarıda göstərilənləri nəzərə alaraq, “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.3-cü maddəsinə, 29.6.1-ci maddəsinin (b), 29.6.2-ci maddəsinin (a), (b), (c), (ç), (e) və (ə), 29.6.3-cü maddəsinin (a), (b), (c), (ç), (d) və (e), 29.6.4-cü maddəsinin (a), (b) və (c), 29.7.1-ci maddəsinin (c), 29.7.2-ci (a), (b), (c), (ç) və (d), 29.8.1-ci maddəsinin (a) və (b) bəndlərinə, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin (f) bəndinə, 6-cı maddəsinin birinci hissəsinin (ç) bəndinə, 29-cu maddəsinin ikinci hissəsinə, “Ədəbi və Bədii Əsərlərin Qorunması haqqında Bern Konvensiyası”nın 2-ci maddəsinin birinci və altıncı bəndlərinə, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin birinci bəndinə və 6-cı maddəsinin birinci bəndinə, “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsinə əsasən, o cümlədən “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası”nın 10 bis maddəsinin ikinci bəndinə və üçüncü bəndinin (a) və (c) yarımbəndlərinə əsasən, Apellyasiya Şurasından xahiş edirik ki, “Вкус Детства” adlı kombinasiya edilmiş əmtəə nişanının (2016 1433 nömrəsi ilə qeydiyyat) qeydiyyatı etibarsız sayılması barədə qərar verəsiniz.

İddiaçının nümayəndəsi Qəşəmov Fuad Azad oğlu çıxış edərək etiraz ərizəsində qeyd olunanları müdafiə etdiyini bildirmiş və etiraz ərizəsinin təmin edilməsini xahiş etmişdir.

“KOROĞLU” MMC-nin nümayəndəsi A.Ə.Ağaşirinov öz çıxışında qeyd etmişdir ki, iddiaçıların nümayəndəsi etiraz ərizəsində “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununa və “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”na əsaslanmışdır. “Konti” Xüsusi Səhmdar Cəmiyyətinə məxsus “Мамулин Торт” adlı kombinasiya edilmiş əmtəə nişanın təsvir hissəsi yaradılmış və əmtəə nişanı kimi nə mənşə ölkəsində, nə də Azərbaycan Respublikasında qeydiyyata alınmamışdır. Belə olan halda həmin qanunlara istinad əsassızdır. Koroğlu MMC tərəfindən “Вкус Детства” adlı kombinasiya edilmiş əmtəə nişanı 02 dekabr2016-cı il tarixdə 30 və 35-ci sinifin əmtəələri və xidmətləri üzrə qeydiyyata alınmışdır. Həmçinin iddiaçıya məxsus “Мамулин Торт” əmtəə nişanı kimi qeydiyyata alınmadığı üçün Koroğlu MMC-yə məxsus əmtəə nişanı ilə müqayisə edilə bilməz. Göstərilənləri nəzərə alaraq etiraz ərizəsi əsassız olduğu üçün təmin edilməməsi barədə qərar verilməsini xahiş etmişdir.

“KOROĞLU” MMC-nin nümayəndəsi E.S.Babaşov digər nümayəndənin dediklərini təsdiq etmiş və etiraz ərizəsinin təmin edilməməsi barədə qərar verilməsini xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçıların nümayəndəsi F.A.Qəşəmovun və "KOROĞLU" MMC-nin nümayyəndələrinin çıxışlarını dinləyib, hesab etdi ki, iddia təmin edilməməlidir.

Apellyasiya şurası müəyyən etdi ki:

"Koroğlu" MMC-yə məxsus "" adlı əmtəə nişanı 30-cu sinifin*"qənnadı məmulatları, xüsusən də konfetlər"*əmtəələri *üzrə və* 35-ci sinifin "*30-cu sinifdə göstərilən əmtəələrin satışı üzrə xidmətlər" xidmətləri üzrə* 02.12.2016 il tarixində "KOROĞLU" MMC-nin adına Azərbaycan Respublikasında 2016 1433 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 11.08.2016);

İstehsalat Birliyi "Konti" Xüsusi Səhmdar Cəmiyyətinin işçisi Sinitsa Tatyana Viktorovna tərəfindən 20 oktyabr 2014-cü il tarixində "Мамулин Торт" ,  təsvirləri yaradılmışdır.

Göstərilən ,  təsvirlər,əmtəə nişanı kimi nə mənşə ölkəsində, nə də Azərbaycan Respublikasında qeydiyyata alınmamışdır.

Apellyasiya şurası hesab edir ki, "İstehsalat Birliyi KONTİ" Xüsusi Səhmdar Cəmiyyətinə məxsus olan ,  təsvirlər, "Koroğlu" MMC-yə məxsus olan "" adlı əmtəə nişanı ilə müqayisəedilə bilməz.

"KONTI-RUS"Səhmdar Cəmiyyətinin və "İstehsalat Birliyi KONTİ" və Xüsusi Səhmdar Cəmiyyətinin "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"na, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununa və "Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası"na istinad edilməsi əsassızdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən verilmiş 04 aprel 2018-ci il tarixli müşayiət məktubu ilə təqdim edilmiş idxal sənədlərindən və iş materiallarına əlavə edilmiş gömrük bəyannamələri, hesab-fakturalar, qaimələr, spesifakisayalardan görünür ki,"Мамулин Торт" nişanlı qənnadı məmulatlar "Koroğlu" MMC tərəfindən Azərbaycan Respublikasına idxal edilməmişdir.

Şərh edilənlərə əsasən, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci və 4-cü maddələrini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1.“Koroğlu” MMC-yə məxsus “” adlı əmtəə nişanının 30-cusinifin*(qənnadı məmulatları, xüsusən də konfetlər)*əmtəələrivə35-ci sinifin *(30-cu sinifdə göstərilən əmtəələrin satışı üzrə xidmətlər)*xidmətləri üzrə2016 1433 nömrəli qeydiyyatına qarşı “KONTİ-RUS” Səhmdar Cəmiyyətinin və “İstehsalat Birliyi KONTİ” Xüsusi Səhmdar Cəmiyyətinin nümayəndəsi A.M.KərimovtərəfindənApellyasiya şurasına verilmiş etiraz ərizəsi əsassız hesab edilsin və iddia təmin edilməsin.

2. Apellyasiya şurasının qərarının alındığı tarixdən Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri M.B.Babayev

Üzvləri: N.F.Nəsibova

F.İ.Məmmədov

N.A.Hacıyeva

Ə.M.Qarayeva

R.N.Hüseynəliyev

E.Ş.Qafarov